

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 186 (23.348)

*4 oktyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 3-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşılayıb.

Sonra Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında görüş olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb.

* * *

Oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 oktyabr tarixli sərəncamları ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də vardır.

**Əkbərova Bilqeyiz İsmayıl qızı**
**Heydərov Murad Paşa oğlu**
**Həsənov Səyyad Qafar oğlu**
**İsmayılov Malik Hüseyn oğlu**

“Tərəqqi” medalı ilə,

**Bağırova Səhnə Novruzəli qızı**
**Əhmədova Şükufə Qəşəm qızı**
**Fərzəliyev Yusif Xanlar oğlu**
**Mustafayeva Fatma Xəlil qızı**

“Əməkdar müəllim” fəxri adları ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşüb.

Ali Məclisin Sədri səfirin diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndiyini, iqtisadi sahədə razılaşmaların əldə olunduğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında da əməkdaşlığın inkişaf etdiyini və gediş-gəlişin artdığını diqqətə çatdıran Ali Məclisin Sədri Cavad Cahangirzadənin səfərini Azərbaycan-İran əlaqələrində Naxçıvana verilən önəm kimi dəyərləndirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Cavad Cahangirzadə Ali Məclis Sədrinin İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri kimi ikitərəfli əlaqələrin inkişafındakı xidmətlərini ölkəsində məmnunluqla qarşılandığını vurğulayıb. Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin əhəmiyyətinə toxunan səfir İran İslam Respublikası Prezidenti Aparatının rəhbəri Mahmud Vaezinin salamlarını Ali Məclisin Sədrinə çatdırıb.

Ali Məclisin Sədri İran İslam Respublikası Prezidenti Aparatının rəhbəri Mahmud Vaezinin salamlarına görə təşəkkürünü bildirib, onun da salamlarını İran İslam Respublikası Prezidenti Aparatının rəhbərinə çatdırmağı xahiş edib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycanın İran İslam Respublikasındakı səfiri Naxçıvan Dövlət Universitetində olub

***Azərbaycanın İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olub.***

Ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, 1967-ci ildə yaradılan və 50 ildən artıq inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti bu gün müasir təhsil infrastrukturuna görə bir çox xarici ölkə universitetləri ilə müqayisə olunur.

Bildirilib ki, 108 hektar sahədə yerləşən universitetdə 16 tədris korpusu, Elektron Kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya İdman Mərkəzi, Baytarlıq Təbabəti Klinikası, Tələbə evi və Universitet Media Mərkəzi yaradılıb. Universitetdə elektron idarəetmə və tədris sistemi istifadəyə verilib, kadr hazırlığına diqqət artırılıb.

Görüş zamanı rektor universitetin tarixi, fəaliyyət istiqamətləri, həyata keçirilən davamlı islahatlar və yeniliklər, beynəlxalq əməkdaşlığın inkişafından danışıb.



Sonra Azərbaycanın İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov universitetdə mövcud olan elmi və texniki potensialı, yaradılan hərtərəfli şəraiti yüksək dəyərləndirib, tələbələrə diplomatiyaya dair mühazirə deyib. Bu peşə üzrə təhsil alan gələcəyin diplomatlarına məsləhət və tövsiyələrini çatdıran səfir diplomatiyanın vasitələri, mərhələləri, diplomatik qaydalardan danışıb. Yaxşı natiqlik qabiliyyətinin, kütləni inandırmaq bacarığının bir diplomat üçün zəruri məziyyətlər olduğunu bildirən Bünyad Hüseynov diplomatların etik davranış qaydaları haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, görüşdə Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov və Tehran səfirliyinin müşaviri Cavid Musayev də iştirak ediblər.

**Səadət ƏLİYEVA**

## Ədliyyə Nazirliyinin elektron saytı yenilənib

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yenilənmiş internet saytı istifadəyə verilib. Sayt ümumi dizaynı, məzmunu, istifadəçi rahatlığı, texniki imkanları baxımından müasir standartlara tam cavab verir. Onun strukturu təkmilləşdirilib, yeni funksional bölmələr əlavə edilib və ən son internet texnologiyaları əsasında yeni dizayn verilib.***

Sayt 7 bölmə və 21 altbölmədən ibarətdir. “Əsas səhifə”də muxtar respublikada baş verən ictimai, siyasi xəbərlər və nazirliyin fəaliyyət istiqamətinə uyğun məlumatlar yerləşdirilib. İstifadəçilərin rahatlığını təmin etmək məqsədilə “Axtar” guşəsi yaradılıb. Aktuallıq və istifadəçi tələbatı nəzərə alınaraq səhifədə əhəmiyyətli saytlara keçid linkləri qoyulub.




Saytın ümumi görünüşünə, dizaynına rəngarənglik qatmaq, həmçinin Naxçıvan şəhərinin və muxtar respublikanın bölgələrinin gözoxşayan məkanlarının tanınması məqsədilə fotoslaydlar yerləşdirilib.

Burada startap layihələrinin qəbulunu nəzərdə tutan bölmə də yaradılıb. Həmin bölmədə “Ədliyyə könüllüləri” çərçivəsində müraciətetmə forması yerləşdirilib. Portalda, həmçinin son dövrlərdə Naxçıvan Muxtar Respublikasının inkişafını və aparılan quruculuq işlərini özündə əks etdirən, muxtar respublikamızın turizm potensialını təqdim edən tanıtım və tarixi abidələr videoqalereyaları mövcuddur.

“Nazirlik” bölməsində istifadəçilərə 4 yarımbölmə təqdim olunur. “Ədliyyə tarixi” yarımbölməsində nazirliyin yaranma tarixi, fəaliyyəti barədə məlumat öz əksini tapıb. “Əsasnamə” hissəsində Ədliyyə Nazirliyinin, Məhkəmə Ekspertizası Mərkəzinin və Penitensiar Xidmətin əsasnamələri yerləşdirilib. Həmin yarımbölmədə nazirliyin fəaliyyət istiqamətləri və ədliyyə işçisinin andı da öz əksini tapıb.

“Qanunvericilik” bölməsində Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil edən Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, qanunları, fərman və sərəncamlar, qərarlar və məcəllələr yerləşdirilib. Müvafiq bölmədə istifadəçilər ədliyyə sisteminin fəaliyyətini əhatə edən normativ-hüquqi aktlarla tanış ola bilərlər.

“Mətbuat xidməti” bölməsi xəbərlər, hesabatlar və rəsmi xronika yarımbölmələrindən ibarətdir. Nazirliyin fəaliyyəti ilə əlaqədar foto və videolar uyğun olaraq “Fotoqalereya” və “Videoqalereya” yarımbölməsində təqdim olunur.

Ədliyyə Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən olan hüquqi maarifləndirmə ilə əlaqədar olaraq saytda “Sual-cavab guşəsi” də yaradılıb. “Bələdiyyə fəaliyyətinə dair tövsiyələr” yarımbölməsində yerli özünüidarəetmə ilə əlaqədar tövsiyə məktubları öz əksini tapıb. Ədliyyə işçilərinin etik davranış qaydaları və notariusların etik davranış kodeksi saytın müvafiq bölməsində yerləşdirilib.

Elektron məktub yazmaq qaydaları, vətəndaşların qəbul gününün qrafiki və digər əlaqə vasitələrini özündə əks etdirən “Müraciətlər” bölməsi istifadəçilərin rahatlıqla nazirliklə əlaqə saxlamalarına imkan yaradacaq.

Yenilənən sayt Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri və görülən işlər barədə ictimaiyyətin daha dolğun və operativ şəkildə məlumatlandırılmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

***İran İslam Respublikasının Təbriz şəhərində nəşr olunan "Ərk" qəzetində Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı məqalə dərc olunmuşdur. Həmin məqaləni təqdim edirik.***

# Naxçıvan Muxtar Respublikası zəngin turizm imkanlarına malikdir





Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan, Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsinin formalaşdığı Naxçıvan Muxtar Respublikasında muxtariyyətin yaradılmasının 95 illiyi qeyd olunur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" təsdiq edilmişdir. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir. 1921-ci il 16 martda bağlanmış Moskva və 1921-ci il 13 oktyabrda bağlanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik olmuşdur. 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Diyarı Naxçıvan Muxtar Respublikasına çevrildi. 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına və 1998-ci il dekabrın 29-da qəbul olunmuş Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasına Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu verildi.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, gündən-günə çiçəklənir. Blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikasında hərtərəfli və dayanıqlı inkişafa nail olunub. Muxtar respublikada müşahidə edilən bu inkişafın şahidi olmaq üçün dünyanın hər bir guşəsindən bu diyara səfərlər edilir. Muxtar respublikada görülən böyük abadlıq-



quruculuq işləri nəticəsində xarici ölkələrdən muxtar respublikaya turist axını daha da artmaqdadır. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada qədim dövrlərin yadigarı olan tarixi-memarlıq abidələri möhtəşəmliyi ilə diqqətləri özünə cəlb edir.

Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsərlərindən biri olan Möminə xatın türbəsi orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir. Naxçıvan memarlıq məktəbinin, bədii memarlıq səviyyəsinin bir şahidi kimi Naxçıvanın mərkəzində yüksəlir. Abidənin üzərindəki kitabədən türbənin 1186-cı ildə tikildiyi məlum olur. Möminə xatın türbəsi bürcvarı Azərbaycan türbələrinin ən görkəmli nümunəsidir. Abidə yeraltı və yerüstü hissələrdən ibarətdir. Türbənin bucaqlarındakı çıxıntılar əsas etibarilə kufi xətlə işlənmiş kitabə ilə örtülmüşdür. Kitabədə həkk olunan maraqlı bir misra türbə ilə tanış olan hər kəsdə unudulmaz təəssürat buraxır: *"Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".*

Əcəmi Əbubəkr oğlunun digər bir gözəl əsəri olan Yusif Küseyir oğlu türbəsi xalq arasında "Atababa türbəsi" və ya "Atababa günbəzi" də adlanır. Səkkiz əsrdən çox yaşı olan türbə XX əsrin ortalarında bərpa edilmişdir. Bərpa işləri nəticəsində türbənin dağılmış hissələri düzəldilmiş, mühəndis qurğuları möhkəmləndirilmişdir. Abidə yeraltı sərdabədən və yerüstü qüllləvarı hissədən ibarətdir.

Gülüstan türbəsi Culfa rayonunun Gülüstan kəndi yaxınlığında orta əsrlərə aid memarlıq abidəsidir. Azərbaycanın digər türbələrindən fərqli olaraq Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə yerləşir. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi, burada da taxçaların içi incə həndəsi naxışlarla örtülmüşdür.

Kəngərli rayonunun Qarabağlar kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsi olan Qarabağlar Memarlıq Kompleksinə daxil olan türbədən başqa, burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının adı yazıldığından, onun Quti xatının şərəfinə tikildiyi güman edilir. Türbənin Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edildiyi ehtimal olunur.

Həmçinin təbiət abidələri – əsrlərdən bəri qorunub saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, tut ağacları və tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı Gəmiqaya abidəsi, Kilit mağarası, Qazma mağarası, bu yerlərin əzəmətinin, məğlubedilməzliyinin simvolu olan Əlincə qalası, möhtəşəmliyi ilə seçilən Haçadağ, Babək qalası, Göygöl, Əshabi-Kəhf və yüzlərlə sənət əsərləri Naxçıvan diyarının analoqu olmayan turizm potensialıdır.

Qədim türk mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının tarixinin, mənəvi mədəniyyətinin öyrənilməsi üçün böyük xəzinədir. Gəmiqaya qayaüstü abidələri Ordubad rayonu ərazisində, 3000-3500 metr yüksəklikdə olan Qaranquş yaylağındadır. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə Azərbaycan türklərinin ulu babalarına aid yurd yerlərinin qalıqlarını aşkara çıxarmış, müəyyənləşdirmişlər ki, Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olmuşdur. Sonralar isə buralar Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış tayfaların yaylaq yerləri olmuşdur. Elə həmin dövrlərdən buradakı qayalar üzərində insan və müxtəlif heyvan (keçi, maral, öküz, quş və sair) rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, ayrı-ayrı işarələr və digər təsvirlər həkk edilmişdir. Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5-6 min il yaşı var.

Əlincə qalası Culfa rayonunda, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı, təqribən, 2 min il bundan əvvələ aid edirlər. "Kitabi-Dədə Qorqud" dastanında Əlincəqala möhkəm istehkam kimi təsvir olunur. Əlincəqala özünəməxsus təbiəti olan bu yerlərin əzəmətinin, mübarizliyinin rəmzidir. Qala, hər şeydən əvvəl, özünün qeyri-adi görünüşü ilə insanı heyrətə gətirir. Əlincəqalanın divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qalanın qədim bəndi ətraf kəndlərdən gətirilmiş iri daşlardan və bişmiş kərpicdən hörülmüşdür. Qalanın kiçik şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış və ictimai binaların xarabalıqları və bünövrə daşları nəzərə çarpır. Əlincə qalası hazırda dağ idman turizmi üçün böyük potensiala malikdir.



Muxtar respublikada mövcud olan dini ziyarətgahlar, pir və imamzadələr, xüsusilə müqəddəs "Qurani-Kərim"in "Əl-Kəhf" surəsində haqqında bəhs edilən Əshabi-Kəhf ziyarətgahı dini turizmin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində ziyarətçilərin ziyarət etməsi üçün hər cür şərait yaradılmışdır.

Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi də turistlərin ən çox ziyarət etdikləri məkanlardan biridir. Nuh türbəsi Naxçıvan şəhərinin cənub tərəfində yerləşən memarlıq abidəsidir. Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli Sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılmışdır.

Muxtar respublikanın zəngin turizm potensialından səmərəli istifadə etmək məqsədilə mühüm işlər görülmüş, şəhər və rayonlarda milli və müasir memarlığın nailiyyətlərini özündə cəmləşdirən istirahət parkları istifadəyə verilmiş, müasir tələblərə cavab verən mehmanxanalar tikilmiş, yeni abidələr ucaldılmış, tarixi yaddaşı əks etdirən qədim memarlıq abidələri bərpa və konservasiya edilərək əvvəlki görkəmlərinə qaytarılmışdır. Duzdağ Fizioterapiya Mərkəzi, həmçinin Darıdağ Arsenli Su Müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulmuş, müayinə, müalicə və istirahət üçün hər cür şərait yaradılmışdır.

Duzdağ Fizioterapiya Mərkəzi Naxçıvan şəhərinin 14 kilometrliyində, 5 ulduzlu "Duzdağ" mehmanxanasından iki kilometr məsafədə yerləşir. Mərkəz 1979-cu ildən xəstəxana kimi fəaliyyətə başlamış, 2006-cı ildə yenidənqurma işləri aparılmış, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunmuşdur. Duzdağ Fizioterapiya Mərkəzində, əsasən, allergik xəstəliklərdən, xüsusilə bronxial-astmadan əziyyət çəkənlər müalicə alırlar. Mərkəzdə tənəffüs orqanları xəstəliklərini uğurla sağaltmaq mümkündür. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki



xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Darıdağ Arsenli Su Müalicəxanası muxtar respublikanın Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə, Şorsu dərəsində yerləşir. Darıdağ Arsenli Su Müalicəxanasında 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada Kudova, Almaniyada Dürkgeym, Rusiyada Sineqorsk, İtaliyada Rençeko və Leviko, Fransada Lua Bulbul sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan daha üstündür.

Müalicəvi istirahət məkanları ilə yanaşı, vaxtdan səmərəli istifadəni təşviq edən muzeylər, əyləncə və istirahət xarakterli kino və teatrlar, il ərzində müxtəlif milli festivalların keçirildiyi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, yeni istifadəyə verilən "Saat Meydanı" turistik istirahət mərkəzi cazibədarlıqları ilə qonaqlarda heyrətamiz izlər buraxır.

Muxtar respublikada 20-dən çox mehmanxana və mehmanxanatipli müəssisə fəaliyyət göstərir, mehmanxanalarda yerlərin ümumi sayı 1500-dən çoxdur. Yəqin ki, təkcə muxtar respublika sakinləri deyil, həm də regiona tez-tez səfər edən qonaqlar öz şəraiti ilə seçilən "Duzdağ", "Təbriz", "Qrand Naxçıvan", "Avtovağzal" otellərini yaxşı tanıyırlar. Mehmanxanalarda turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

*Muxtar respublikanın rəngarəng təbiət mənzərələri, əlverişli iqlim şəraiti, mineral suları ekoturizmin inkişafını şərtləndirən başlıca amillər sırasındadır. Həyatın bütün sahələrində əsaslı dəyişikliklərin şahidi olduğumuz Naxçıvan Muxtar Respublikasında 95 illik tarixi inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrü yaşanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublika 20 ildən artıq bir dövrdə hərtərəfli tərəqqiyə nail olmuşdur. Bu işlər bu gün də sürətlə və ardıcıl olaraq davam etdirilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində daha böyük inkişafa doğru inamla və qətiyyətlə irəliləyir, çiçəklənən bir diyara çevrilir.*

## Rəsm Festivalı çərçivəsində keçirilən “Yurdumun rəngləri” adlı müsabiqəyə yekun vurulub





***Oktyabrın 3-də “Saat Meydanı” turistik istirahət mərkəzində Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalı çərçivəsində keçirilən “Yurdumun rəngləri” adlı müsabiqənin qalibləri mükafatlandırılıb.***

Əvvəlcə Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupu çıxış edib. Tədbirin davamı olaraq Rəssamlar Birliyinin üzvü olan 15 rəssam “Saat Meydanı”nda muxtar respublikanın 95 illiyinə həsr edilmiş müxtəlif mövzularda rəsm əsərləri çəkiblər, eyni zamanda burada iştirak edən gənc tələbələrə ustad dərsləri keçiblər.

Sonra “Yurdumun rəngləri” adlı müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək festival iştirakçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından təbrik edib. Qeyd edib ki, Ali Məclisin Sədri 2019-cu il 25 may tarixində Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəssamlar Birliyinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, Naxçıvanda rəssamlıq sənətinin inkişafına dəstək olan Rəsm Festivalının təşkili və festivala həsr olunmuş albom-kataloqların, internet resurslarının hazırlanması məqsədilə Sərəncam imzalayıb. Festival çərçivəsində “Yurdumun rəngləri” adlı müsabiqə keçirilib. Müsabiqəyə Rəssamlar Birliyi üzvlərinin müxtəlif nominasiyalar üzrə muxtar respublikanın 95 illik inkişaf və quruculuq tarixini əks etdirən rəsm əsərləri təqdim olunub. Müsabiqə iştirakçıları müxtəlif nominasiyalar üzrə I, II, III və həvəsləndirici yerlərə layiq görülüblər.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxışında qeyd edib ki, doğma Azərbaycanın qədim guşəsi olan Naxçıvan artıq “festivallar diyarı” adlandırılır. Naxçıvanın iqtisadi-siyasi, elmi-mədəni inkişafı rəssamlarımıza böyük ruh verir. Muxtar respublika rəssamları əsərlərində bu inkişafı, gözəlliyi daim vəsf edirlər. Qədim diyarımızda rəssamlara böyük diqqət və qayğı göstərilir. Bu qayğının növbəti nümunəsi Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalının keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamıdır. Bu sərəncamda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsində aid Ehtiyat Fondundan Rəssamlar Birliyinə on beş min manat vəsait ayrılıb. “Yurdumun rəngləri” adlı festival-müsabiqə də sərəncamın icrası istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Bildirilib ki, müsabiqəyə təqdim edilmiş əsərlərə baxış və seçim mərhələsi olub, rəngkarlıq, qrafika, plakat, dekorativ-tətbiqi sənət, ümumilikdə, dörd nominasiya üzrə 29 rəssamın 39 əsəri təqdim edilib. Həmin əsərlər bir-birindən maraqlı və mövzu baxımından rəngarəngdir. Müsabiqədə münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdirilib.

Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikasında rəssamlara göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Sonra müsabiqə qaliblərinə mükafat, diplom və fəxri diplomlar təqdim olunub.

Sonda sərgiyə baxış olub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Daxili İşlər Nazirliyinin kollektivi sərgi-satışla tanış olub



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış davam edir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kollektivi dünən sərgiyə baxıb.

Məlumat verilib ki, sərgi-satışa, ümumilikdə, 305 qadının 3 min 926 əl işi çıxarılıb. Sərgi-satışda istedadlı, sağlamlıq imkanları məhdud evdar xanımlarla yanaşı, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvləri, tam orta məktəblərin istedadlı şagirdləri, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınların da əl işləri sərgilənir.

Daxili İşlər Nazirliyinin əməkdaşları sərgidən hədiyyəlik əl işləri də alıblar.

Qeyd edək ki, dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin və digər təşkilatların da əməkdaşları sərgi-satışla tanış olublar.

**Xəbərlər şöbəsi**

## Bir gündə 29 cərrahiyyə əməliyyatı aparılıb



*Diaqnostika Müalicə Mərkəzinin həkimləri tərəfindən Culfa rayonunda humanitar tibbi aksiya keçirilib.*

Növbəti aksiyada, ümumilikdə, 21 nəfərdən ibarət tibbi heyət iştirak edib. Aksiya üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanıb və onlar xəstəxanaya dəvət ediliblər.

Yüksəkixtisaslı heyət 38 nəfəri ambulator müayinələrdən keçirib. Cərrahi müdaxiləyə ehtiyacı olan 29 xəstə üzərində müxtəlif növ yırtıq, fimoz, burun-qulaq-boğaz və başqa əməliyyatlar aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr palatalara köçürülüb, birgünlük müşahidədən sonra evlərinə buraxılıblar.

Ağır cərrahiyyə əməliyyatları nəticəsində şəfa tapan xəstələrdən Billurə Əsgərova, Nazim Məmmədov, Fidan Məmmədli başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunduqlarına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

Diaqnostika Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqlardan istifadə ilə bağlı tövsiyələr veriblər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olan belə humanitar aksiyaların digər rayonlarda da ilboyu keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Vətən sərhəddən başlayır*

## Yüksək intizama və döyüş hazırlığına malik olan sərhədçilərimizə böyük qayğı göstərilir

***“Sərhəd xalqımız və müstəqil dövlətimiz üçün müqəddəsdir. Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən mühüm amildir”. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi bu fikirlər bir daha ölkə sərhədlərinin toxunulmazlığının əhəmiyyətini vurğulamaqla bərabər, onun etibarlı qorunmasını da qarşıya müqəddəs vəzifə olaraq qoyur.***



Güclü ordu müstəqilliyimizin, ərazi bütövlüyümüzün, sülh və əmin-amanlığın əsas təminatçısıdır. Artıq müasir və qüdrətli milli ordusu formalaşmış ölkəmizin ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirləri uğurla həyata keçirilir. Görülən işlərin tərkib hissəsi olaraq “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazası daha da möhkəmləndirilərək burada hərtərəfli xidmət şəraiti yaradılıb, müasir yaşayış və xidmət kompleksləri istifadəyə verilib. Sərhəd zastavaları yenidən qurulub.

Sərhədlərimizin qorunması şərəfli bir vəzifədir. Bununla bağlı Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***“Sərhəd dövlətimiz üçün müqəddəsdirsə, sərhədçi olmaq, sərhədləri qorumaq isə şərəfli işdir. Hər bir sərhədçi öz xidməti ilə nümunə göstərməli, sərhədlərin mühafizəsinə həmişə hazır olmalıdır”.***

Bəli, bu gün sərhədçilərimiz bu ideyaların işığında Vətəninin sərhədini göz bəbəyi kimi qoruyurlar. Çünki Azərbaycan Respublikasının hər bir vətəndaşı öz rahat yaşayışı üçün sərhədçiyə güvənir. Muxtar respublikaya səfər edən bütün xarici vətəndaşlar da buradakı asayişdən, əmin-amanlıqdan ağızdolusu danışırlar. Bu da aydın məsələdir ki, həmin asayişin, əmin-amanlığın və təhlükəsizliyin qarantı müstəqil Azərbaycanın sərhədçiləridir.

Sentyabrın 17-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 15-ci sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi də sadalananları bir daha təsdiq edir.

Yeni inşa edilən ikimərtəbəli qərargah binasında xidməti otaqlar, sinif otağı, əsgər və zabit yataqxanası, yeməkxana və ərzaq anbarı vardır. Yataqxana mebel dəstləri ilə təmin edilib. Burada məişət guşəsi yaradılıb, soyutma və istilik sistemləri qurulub.

Sərhədçi ailələri üçün tikilən 4 mənzilli yeni xidməti yaşayış binasında bütün kommunal-məişət şəraiti mövcuddur. Mənzillər mebel dəstləri və məişət əşyaları ilə təmin olunub. Binanın həyəti də abadlaşdırılıb.

Yaradılan şəraitlə tanış olmaq məqsədilə məsul zabitlə birlikdə həmin zastavaya yola düşürük. Bir neçə il öncə bu zastavaya getdiyimdən yolun həddindən artıq yararsız vəziyyətdə olduğunu bilirdim. Ancaq bu dəfə yolu qət edərkən məsul zabitlə də söhbətimizdən məlum oldu ki, zastavaya qədər olan 10 kilometrlik yol və qaz xətti yenidən çəkilib. Ətrafdakı təbiət mənzərəsini izləyə-izləyə zastavaya çatdıq. Burada yaradılan şəraiti görəndə bir vətəndaş kimi sinəmiz qürur hissi ilə doldu. Aparılan quruculuq işləri nəticəsində maddi-texniki baza xeyli möhkəmləndirilib, zastava müasir texnika, avadanlıq və ləvazimatlarla təmin olunub, yeni sərhəd infrastrukturu yaradılıb. Zastavada bir-birindən yaraşıqlı xidməti otaqlar, yüksək təchizatlı rabitə otağı yaradılıb.

Zastavada xidmət edən əsgərlərdən Lənkəran rayonundan həqiqi hərbi xidmətə çağırılan Şahin İsmayılzadə ilə də söhbət etmək imkanımız oldu. Onun dediklərindən:

– Artıq üç aydır ki, bu qədim diyarda Vətənə xidmət edirəm. Burada olduğum üçün çox şadam. Çünki bu diyarı yaxından tanımaq şansı qazandım. Sərhədçi kimi xidmətimə gəldikdə isə onu deyə bilərəm ki, Vətən sərhədləri müqəddəsdir. Onu qorumaq isə şərəfli işdir. Komandirlərimizin qeyd etdiyi kimi, həqiqətən, sərhədçi fiziki cəhətdən tam hazırlıqlı, dünyagörüşlü, insanlarla yaxşı ünsiyyət qura bilmək bacarığına malik olmalı, bu istiqamətdə yetişməlidir. Bir sərhədçi kimi anlayırıq ki, sərhədlərimizi sərhədpozuculardan qorumaq təkcə vəzifəmiz deyil, həm də Vətənimizə olan müqəddəs borcumuzdur. Çünki Vətənimizi, öz yaxınlarımızı, qohumlarımızı və həmvətənlərimizi qorumaq bizə həvalə edilib. Ona görə də işimizə məsuliyyətlə yanaşır, sərhədlərimizin keşiyində daim ayıq-sayıq dayanmağa çalışırıq. Mən fəxr edirəm ki, Azərbaycan sərhədlərinin keşiyində dururam.



Daha sonra burada sərhədçi ailələri üçün yeni istifadəyə verilən 2 mərtəbəli 4 mənzilli xidməti yaşayış kompleksində Bayramovlar ailəsinin qonağı oluruq. Ailənin xanımı Dilbər Bayramova deyir ki, artıq 8 ilə yaxındır, Naxçıvanda yaşayırıq. Bu illər ərzində həyat yoldaşım muxtar respublikamızın fərqli bölgələrində xidmət edib. Bir hərbçi ailəsi kimi bizə də daim qayğı göstərilib, sosial-məişət şəraitimiz diqqət mərkəzində saxlanılıb.

Dilbər Bayramova onu da bildirdi ki, Naxçıvan mənim üçün çox əzizdir. Bura mənə o qədər doğmalaşıb ki, sanki elə Naxçıvanda böyümüşəm. Bir sərhədçi ailəsi olaraq yoldaşımın bu diyarda xidmət etməsi məni qürurlandırır. Biz bu gün evimizdə rahat yatırıq. Çünki bilirik ki, sərhədlərimiz etibarlı şəkildə qorunur.

Ailə başçısı, kapitan Amid Bayramov söhbətə qoşularaq deyir ki, mən muxtar respublikada xidmət etdiyim müddətdə hərbi qulluqçuların məişət şəraitinin daim diqqət mərkəzində olduğunu görmüşəm. Burada yaradılan yeni əsgər yataqxanalarının, tibb məntəqələrinin, təlim-tədris mərkəzlərinin, zastavalarda yeni yaşayış binalarının tikilməsi və məişət avadanlıqları ilə təchiz olunması buna bariz nümunədir. Mən və mənim kimi burada xidmət edən hərbi qulluqçular öz ailələrinin məişət şəraitindən, tibbi və sosial xidmətlərdən narahat deyillər. Bu da bizim məsuliyyətimizi daha da artırır. Söz veririk ki, göstərilən diqqət və qayğını bundan sonra da nümunəvi xidmətimizlə doğruldacağıq.

*Zastavada olduğumuz müddətdə yaradılan şəraitlə tanışlığımızdan və sərhədçilərimizlə söhbətlərimizdən bir daha əmin olduq ki, bu sərhədlərimizi çevik, yüksək intizama və döyüş hazırlığına malik, ən müasir texniki vasitələrlə təmin olunmuş sərhədçilərimiz mühafizə edir. Onlara yaradılmış şərait isə ən yüksək səviyyədə və nümunə gücündədir.*

✍ **Pərviz HACILI**

## 43 il şərəfli müəllim adının keşiyində

*Gənc nəsillərin ilhamçısı, yolgöstərəni, öyrədəni, könüllərdə, qəlblərdə silinməz yeri olan, öz həyatını xalqın, millətin gələcəyinə həsr edən, insanı həyata hazırlayan, onun dünyagörüşünü, mənəvi dünyasını və ictimai-siyasi baxışlarını formalaşdıran, beyinlərə, qəlblərə min bir zəhmətlə biliklərindən mənəvi qida verən, vaxt yetişəndə isə şagirdinin bilikli, qabiliyyətli olduğunu görüb fərəhlənən, qol-qanad açıb sevinən, Günəş kimi lütfkar, hava kimi aydın, su kimi duru, müqəddəs varlıqdır müəllim… Bu ada min dastan desən, nə söz tükənər, nə qəlb susar. Onun zəhmətini, alın tərini heç zaman unutmaq olmaz.*



Uzun illər Culfa rayonunun Saltaq kəndində pedaqoji fəaliyyətlə məşğul olmuş Arif Nuriyev də yaxşı pedaqoq, şagirdlərinin uğurları ilə fərəhlənən zəhmətkeş insan, fədakar müəllim kimi çalışıb. Ömrünün 43 ilini pedaqoji fəaliyyətə həsr etmiş Arif müəllimlə tanışlığımızın ilk dəqiqələrindən məndə bu gülərüz, mülayim təbiətli, səmimi insanı yaxından tanımaq, saçını müqəddəs bir işdə ağartmış, neçə-neçə Vətən övladına Azərbaycan dili və ədəbiyyatının sirlərini öyrətmiş nəcib insanla həmsöhbət olmaq həvəsi yarandı. Arif müəllimdə müəllimlik peşəsinə həvəs elə məktəb illərindən başlayıb. Deyir ki, peşə və sənətlərin hamısı gözəldir. Amma qəlbən bağlı olduğun, uşaqlıqdan arzuladığın, könül verib sevdiyin sənətin sahibi olmaq ikiqat gözəldir. Müəllimlik sənətini müqəddəs hesab edən Arif müəllim ona qayğı göstərmiş müəllimlərini bu gün də unutmur, onların xatirəsini həmişə əziz tutur.

Onun fikrincə, müəllim Günəş, şagirdləri, yetirmələri Günəşə boylanan çiçərtilərdir. Bu gün müəllimin işi təkcə məktəbdə hər hansı bir fənni tədris etməklə yekunlaşmır. Bu günün müəllimi sabahın ağıllı, savadlı, bacarıqlı, vətənpərvər, ziyalı, bir sözlə, cəmiyyəti daha işıqlı, daha xoşbəxt günlərə apara bilən nəsillər yetişdirib tərbiyə edir, onların şəxsiyyət kimi formalaşmasında başlıca rol oynayır.

1976-cı ildə ali təhsilini başa vurub təyinatla 3 il Astara rayonunda işləyib. 1979-cu ildən isə fasiləsiz olaraq Saltaq kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edib. Arif müəllim deyir ki, əsl, milli keyfiyyətli vətəndaş yetişdirməyin yolu doğma dilimizi, ədəbiyyatımızı yaxşı öyrənməkdən keçir. Daim axtarışda olan müəllim kitab dilinin sadələşdirilməsinə diqqət yetirər, mövzuları lakonik, anlaşıqlı dillə şagirdlərinə çatdırardı. O deyir ki, müəllimlərimin mənə öyrətdiklərini onlara aşılamağa çalışmışam. Bir də ona görə sevinirəm ki, həm öyrədən, həm də öyrənən olmuşam.

Arif müəllim pedaqoji fəaliyyəti dövründə bir sıra uğurlara imza atıb. Belə ki, o, 2002-ci ildə respublika müəllimlərinin Bakı şəhərində keçirilən XXIV pedaqoji mühazirəsində II yerə, 2003-cü ildə XXV pedaqoji mühazirədə I yerə layiq görülüb, Azərbaycan Respublikası Təhsil Nazirliyinin I və II dərəcəli diplomları və fəxri fərmanları ilə təltif olunub. 2006-cı ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub. 2010-cu ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb.

Hazırda təqaüddə olan Arif müəllim tez-tez məktəbə gəlir və zəngin təcrübəsini gənc müəllim həmkarlarından əsirgəmir. Sənətinin vurğunu, fədakar müəllim işlədiyi müddətdə çalışdığı məktəbi və şagirdlərini daim qabaqcıllar cərgəsində görmək istəyib. Zəhmətinin hədər getmədiyini vurğulayan müsahibim şagirdlərinin fənn olimpiadalarında, inşa və şeir müsabiqələrində, bilik yarışmalarında qalib yerlər tutaraq həmişə ona başucalığı gətirdiyini deyir. Şagirdlərindən bir neçəsinin qalib çıxan inşa yazıları Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəşr etdirdiyi "Heydər Əliyev məktəblilərin gözü ilə" və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanan "Pöhrələr" kitablarında çap olunub.

Çoxşaxəli fəaliyyəti ilə seçilən Arif müəllim hələ tələbə ikən yaradıcılıq sahəsində də qələmini sınayaraq mətbuatda müxtəlif mövzularda məqalələrlə çıxış edib. Daim yeniliklər axtarışında olan Arif müəllimin Azərbaycan şifahi xalq ədəbiyyatı ilə bağlı topladığı folklor nümunələri AMEA Naxçıvan Bölməsinin nəşr etdirdiyi "Naxçıvan folkloru"nda çap olunub. Müxtəlif illərdə Naxçıvan Müəllimlər İnstitutunun elmi-praktik konfranslarında iştirak və çıxış edib. Onun vətənpərvərlik mövzusunda yazdığı "Şərəfli ölüm" adlı hekayəsi "Arazın səsi" və "Azərbaycan müəllimi" qəzetlərində dərc edilib.

2014-cü ildə uzunmüddətli axtarışlarının və zəhmətinin bəhrəsi olan "Azərbaycan dilində az işlənən leksik şəkilçilər" adlı dərs vəsaitinin işıq üzü görməsi ilə dilimiz haqqında yeni biliklər qazanmaq istəyənlər üçün də yeni bir yol açıb. Tədqiqatda 230-dan artıq qeyri-məhsuldar şəkilçidən söz açılır ki, onlardan 100-ə yaxını, demək olar ki, bu günə qədər heç bir kitabda öz əksini tapmayan nadir şəkilçilərdir.

"Bu günün müəllimi necə olmalıdır?" sualının cavabında Arif müəllim belə deyir:

– Hər peşədə olduğu kimi, müəllimlikdə də müvəffəqiyyətin əsas şərti peşəyə sevgidən başlayır. Müəllim öz peşəsini böyük məhəbbətlə sevməlidir. O təkcə dərsliklə deyil, həm də bütün maddi və mənəvi dünyası ilə öyrədici, inandırıcı, tərbiyəedici olmalıdır. Müəllim öz peşəsinə sevgisini uşaqların sevgisi ilə bağlamalıdır. Rus yazıçısı Lev Tolstoy deyib: "Əgər müəllim yalnız işini sevirsə, o, yaxşı müəllim olacaqdır. Əgər müəllim ata-anası kimi yalnız uşaqları sevirsə, o, əvvəlkindən də yaxşı müəllim olacaqdır. Əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə, o müəllim əsl müəllimdir".

Bəli, müəllimlik çətin və şərəfli bir peşədir. Bu peşədə uğur qazananlar yalnız onun hər cür əzabına, əziyyətinə, yuxusuz gecələrinə dözən, sənətini sevənlərdir. Biz də bu müqəddəs peşə sahiblərinə gələcəyin kamil şəxsiyyəti, hərtərəfli mütəxəssisi, əsl vətəndaşını yetişdirmək kimi ülvi məramı gerçəkləşdirmək işində uğurlar arzu edirik.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**




*Xalqımızın çoxəsrlik tarixi boyunca gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirlər toplanmışdır. Bu mənəvi və elmi-əxlaqi sərvətləri öyrənmək, onları təfəkkür süzgəcindən keçirib gənc nəslin düzgün yetişdirilməsində istifadə etmək olduqca əhəmiyyətlidir. Buna görədir ki, ədəbi irsimizin qabaqcıl ideya, fikir və baxışlarının, görkəmli şəxsiyyətlərin maarifçiliklə bağlı fikirlərinin öyrənilməsi və təbliği istiqamətində muxtar respublikamızda sistemli işlər aparılır. Elmi araşdırmaların genişlənməsinə göstərilən dövlət qayğısının nəticəsi olaraq tanınmış şəxsiyyətlərin pedaqoji fikirlərinə həsr olunmuş qiymətli əsərlər hazırlanaraq nəşr olunur. Azərbaycan xalqının mənəviyyat pasportuna çevrilən Məmməd Səid Ordubadi də belə şəxsiyyətlərdən, maarifpərvərlərdən biridir.*

*Yeni nəşrlər*

## Pedaqoji irsin tədqiqinə layiqli töhfə

Gənc tədqiqatçı, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Ruhəngiz Əliyevanın yeni çapdan çıxmış "Məmməd Səid Ordubadinin maarifçi görüşləri" adlı monoqrafiya görkəmli ziyalının maarifçilik hərəkatındakı rolunu, onun zəngin pedaqoji ideyalarını əhatəli, məzmunlu və səlis fikirlərlə ifadə edən ilk irihəcmli əsər kimi diqqəti cəlb edir. Akademik İsa Həbibbəylinin redaktorluğu, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayevin rəyi ilə nəşr olunmuş bu kitab pedaqojiyönlü ali məktəblərin bakalavr və magistrləri, doktorant və müəllimləri, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Ulu öndərimiz Heydər Əliyev Məmməd Səid Ordubadinin yaratdığı əsərləri Azərbaycan xalqının milli sərvəti kimi qiymətləndirərək araşdırılmasını, öyrənilməsini tövsiyə edirdi. Müəllifin mövzu ilə bağlı araşdırmalara diqqətlə, geniş və əhatəli yanaşması da elə ulu öndərin Ordubadi irsinin aktuallığı ilə bağlı kitabda yer alan qiymətli fikirlərindən qaynaqlanır: ***"Məmməd Səid Ordubadi əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsiz ki, nə qədər təhlil etsələr, o qədər dərinliyə gedəcəklər. Bəlkə də, böyük dərya kimi heç onun hamısını əhatə edə bilməyəcəklər. Ancaq bununla yanaşı, bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Məmməd Səid Ordubadinin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə".***

Müəllifin Məmməd Səid Ordubadinin maarifçi görüşlərini, məktəb və müəllim haqqında fikirlərini elmi araşdırma müstəvisinə gətirməsi həm tarixilik nöqteyi-nəzərdən, həm də bu gün üçün olduqca faydalıdır. Sevindirici haldır ki, oxuculara təqdim olunan kitabda Ordubadinin zəngin pedaqoji irsi ilk dəfə ayrıca tədqiqat obyekti kimi əhatəli araşdırılaraq sistemləşdirilib. Məktəblərimizdə təhsil prosesində, eləcə də gənc nəslin nəcib əxlaqi keyfiyyətlər ruhunda tərbiyə edilməsində monoqrafiyada toplanan qiymətli pedaqoji ideyalardan bəhrələnmək səmərəli ola bilər.

Üç fəsildən ibarət olan kitabda Ordubadini görkəmli yazıçı, qabaqcıl maarifçi, elm və təhsil carçısı, mütərəqqi fikirli ictimai xadim kimi səciyyələndirən əsas keyfiyyətlər önə çıxarılır, Azərbaycan maarifçilik hərəkatına verdiyi töhfələr təhlil olunur, irəli sürülən fikirlər yazıçının əsərlərindən nümunələrlə zənginləşdirilir. Dünyanı dəyişdirməyin, inkişaf və tərəqqinin əsas silahını məktəb, elm, təhsil hesab edən mütəfəkkirin maarifçi-demokrat obrazı tutarlı ifadələrlə oxucunun diqqətinə çatdırılır.

Əsər Ordubadinin gənc nəslin elmlərə yiyələnməsi, yeni üsullu, dünyəvi təhsil verən qabaqcıl məktəb şəbəkələrinin genişləndirilməsi uğrunda mübarizəsini önə çıxaran fikirlərlə zəngindir. Bir neçə dili mükəmməl bilən maarifpərvər ziyalının təlimin ana dilində aparılması, onun saflığının qorunması, tədrisinin yaxşılaşdırılması ilə bağlı görüşlərinin təhlilinə dair fikirlər kitabda xüsusi yer tutur. Ordubadinin pedaqoji fikirləri arasında ailə və məktəbin birgə işi, müəllim və ona verilən tələblər, müəllim hazırlığı kimi məsələləri ətraflı araşdıran müəllif onun təlimə vahid proses kimi yanaşdığını ön plana çəkir.

Kitabda yüksək mədəniyyətə malik, vətənpərvər, humanist, işgüzar insan, görkəmli ictimai və mədəniyyət xadimi və pedaqoq kimi səciyyələndirilən Məmməd Səid Ordubadinin həyat yolu gənclərə nümunə kimi aşılanır. Vurğulanır ki, görkəmli ziyalının "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm" adlı məşhur romanlarında, habelə şeirlərində əsas ideya cəmiyyətdə mədəni geriliyə qarşı mübarizə, qəflət və cəhalətin tənqidi, eyni zamanda elmin, maarifin, qabaqcıl mədəniyyətin təbliği olub. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı da daxil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görkəmli ədib barədə söylədiyi aşağıdakı fikirlər onun irsinə verilən dəyəri dolğun şəkildə ifadə edir: ***"Məmməd Səid Ordubadinin zəngin yaradıcılığı millilik və bəşəriliyi, yüksək vətəndaşlıq qayəsini, qabaqcıl ideyaları özündə birləşdirən Azərbaycançılıq məktəbidir. Bu məktəbin tariximizdə və ədəbiyyatımızda oynadığı rol yüksək qiymətə layiqdir".***

İnanırıq ki, Ruhəngiz Əliyevanın Məmməd Səid Ordubadinin maarifçi ideyalarının araşdırılmasına həsr edilmiş monoqrafiyası onun zəngin irsinin öyrənilməsi və təbliğində gənclərimiz və tədqiqatçılarımız üçün faydalı olacaq, bu səpkidə aparılan yeni araşdırmalarla birlikdə pedaqoji fikir tariximizin gələcək nəsillərə çatdırılmasına öz töhfəsini verəcəkdir.

***Zəhmət ŞAHVERDİYEV***
*tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü*

## Naxçıvanlı alimlərin növbəti uğuru

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov və Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədova XXI Beynəlxalq təhsillə bağlı texnologiya və xidmətlər sərgisində iştirak etmək üçün dəvət alıblar.

Rusiya Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin qərarı ilə aktuallığı və elmi-pedaqoji əhəmiyyətinə görə müəlliflərin "Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri", "Təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsində ekologiya və ətraf mühit", "Təbiətin möcüzəsi – su", "Naxçıvan Muxtar Respublikasının mineral suları" və "Naxçıvan Muxtar Respublikasının kəhriz və bulaq suları" kitabları 12-15 oktyabr 2019-cu il tarixində Soçidə keçiriləcək sərgidə nümayiş olunacaq. Sözügedən kitabların rus və ingilis dilində 3 səhifəlik xülasələri sərginin kataloqunda dərc ediləcək.

Onu da qeyd edək ki, müəlliflərin kitab və elmi-metodik komplekslərinin ingilis dilində kataloqu 6-10 noyabr tarixində Avstriyanın Vyana şəhərində keçiriləcək Beynəlxalq Vyana kitab sərgisində iştirak etmək hüququ qazanıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Sədərək rayonunda futbol turniri



Sədərək rayonunun Heydərabad qəsəbəsinin mini-futbol meydançasında rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin, Uşaq-gənclər idman məktəbinin, Naxçıvan Futbol Federasiyası Sədərək Rayon bölməsinin və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə məktəblilər arasında mini-futbol turniri keçirilib.

Tədbirdə Gənclər və İdman İdarəsinin rəisi Polad Rzazadə və Uşaq-gənclər idman məktəbinin direktoru Nizami Bağırov çıxış ediblər.

Sonra turnirə start verilib. Sədərək kənd 1 nömrəli tam orta məktəbin "Sədərək" komandası qalib adını qazanıb. Elə bu məktəbin "Əjdəkan" komandası ikinci, 2 nömrəli tam orta məktəbin "Kəhriz" komandası isə üçüncü olub.

Sonda qaliblər təşkilatçıların diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhəri, "56-cı" məhəllə, döngə 1, ev 3A ünvanında yaşayan Hüseynova Qızxanım Tofiq qızının adına olan 14009 inventar nömrəli texniki pasport və MH-0022930 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 675